**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ və HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**KƏMALƏ AĞAGÜL QIZI NURİYEVA**

# MÜASİR DÖVRDƏ TÜRK BİRLİYİ KONSEPSİYASININ İDEOLOJİ ƏSASLARI

İxtisas: 7210.01 – Fəlsəfə tarixi

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I – 2015**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Din və ictimai fikir tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbərlər:** **Rafael Baba oğlu Hüseynov**
filologiya üzrə elmlər doktoru, akademik

**Esmeralda Yusif qızı Həsənova**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

**Rəsmi opponentlər:** **Arzu Əşrəf qızı Hacıyeva**
fəlsəfə üzrə elmlər doktoru

**Qəmər Əziz qızı Mürşüdlü**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat**: Azərbaycan Dovlət Neft və Sənaye Universiteti

Müdafiə "_26__" __10______ 2015-ci il saat ____ da AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun nəzdindəki fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı- Az-1143, Bakı ş., H.Cavid pr.115, AMEA Fəlsəfə və Hüquq İnstitutu. IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "______" _________ 2015-ci ildə göndərilmişdir.

**Fəlsəfə və Hüquq İnstitutunun**
**nəzdindəki D 01.115 Dissertasiya**
**Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru:** **Sevinc Arif qızı Həsənova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Türk xalqlarının müstəqil dövlətlərə sahib olması dövlətlərarası əlaqələrin inkşafı və tarixi köklərin bərpası baxımından mühüm əhəmiyyət kəsb edir. Müasir bəşəri dəyərlərin fonunda öz soy kökünə qayıdış, milli-mənəvi dəyərləri canlandırmaq meyli daha da güclənməkdədir. Bu prosesə təkan verən əsas amillərdən biri türk dünyasının qədim tarix, zəngin mədəniyyət və ortaq ənənələrə malik olmasıdır. Böyük coğrafi arealda yayılmasına, müxtəlif ideoloji aşınmalara, siyasi təzyiqlərə məruz qalmasına baxmayaraq, türk xalqları öz etnik-mədəni sistemini qoruyub saxlamışdır. Müstəqil dövlətlərə sahib olan türk xalqları məhz bu etnik mədəni-mənəvi yaxınlıq əsasında yeni münasibətlər qurmaq fürsəti əldə etdilər.

XIX əsrin sonu XX əsrin əvvəllərində milli oyanış, milli azadlıq ideyası kimi təşəkkül tapmış türkçülük hərəkatı XX əsrin sonlarında türk xalqlarının müstəqil dövlətlərə sahib olması sayəsində yenidən aktuallıq kəsb etdi. Türkçülük, türk millətçiliyi, türk xalqlarının birləşməsi ideyaları inkişafının yeni mərhələsinə keçid edərək *neotürkizmə* transformasiya etdi. Neotürkizmin klassik türkçülükdən fərqlənən tərəfləri vardır. Belə ki, XIX əsrin sonu XX əsrin əvvəllərində formalaşmış türkçülük ideyası türk xalqlarının mariflənməsini, dirçəlməsini, istiqlalını nəzərdə tuturdusa, XX əsrin sonlarında, türk xalqlarının müstəqil dövlətlərə sahib olması zamanında, artıq müasir türkçülük – neotürkçülük yarandı ki, müstəqil dövlətlərin ideoloji, mədəni, iqtisadi, humanitar birliyini, inteqrasiyasını özündə ehtiva edir. Müasir türkçülük türk birliyi konsepsiyası şəklində formalaşıb inkişaf etməkdədir. Bu kontekstdə türk birliyi konsepsiyasının XIX əsrin sonu XX əsrin əvvəllərindən formalaşmağa başlamış ideoloji əsaslarının tədqiq edilməsi əhəmiyyətlidir.

Dissertasiya mövzusunun aktuallığını aşağıdakı konkret amillərlə izah etmək olar:

- XX əsrin 90-cı illərinin əvvəllərində türk xalqlarının müstəqillik əldə edərək respublika qurması bu xalqlar və onların dövlətləri arasında yeni əlaqələrin, münasibətlərin formalaşdırmasını zəruriləşdirdi. Bu kontekstdə XIX əsrin sonu XX əsrin əvvəllərində formalaşmış türkçülük ideologiyası yenidən aktuallıq kəsb edərək, yeni təzahürdə - türk birliyi konsepsiyası şəklində özünü göstərdi. Pozitiv millətçiliyi ifadə edən bu konsepsiyanı həmçinin, neotürkçülük adlandırmaq olar.

- Türk birliyi konsepsiyası anlayış olaraq yeni olsa da ideya kimi hələ XIX əsrin sonu XX əsrin əvvəllərində mövcud idi. Türk birliyi konsepsiyasının əsasında dayanan ideyaların tarixinin öyrənilməsi mühüm əhəmiyyət kəsb etdiyindən dissertasiyada türk birliyi konsepsiyasının yaranma və inkişaf tarixinə xüsusi yer ayrılmışdır.
- Azərbaycan və Orta Asiyanın türkdilli dövlətləri müstəqillik qazandıqdan sonra bu dövlətlərin əməkdaşlığı və birgə fəaliyyəti üçün yeni imkanlar açıldı və bu yolda türk birliyi konsepsiyası bir növ vasitəyə çevrildi.
- Türk birliyi konsepsiyasının ideoloji əsasları, müasir dövrdə yeni yaranmış türkdilli respublikalar arasında siyasi əlaqələrin qurulması, dövlətlərarası münasibətlərin inkişafı, bu respublikaların iqtisadi və siyasi potensialının artması, müstəqil dövlətçilik fəaliyyətinin genişləndirilməsi, tarixi ənənələrə əsaslanaraq bu dövlətlər arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın gücləndirilməsi, ən başlıcası, yeni təşəkkül tapmış müstəqil türkdilli dövlətlərin beynəlxaq aləmdə nüfuzunun artması və dünya dövlətləri arasında özünəməxsus yer tutması kontekstində tədqiq edilməyə çalışılır.
- Türk birliyi konsepsiyasının ideoloji bazasında türk mədəniyyəti, dil birliyi və din ümumiliyi vardır. İdeoloji birliyi möhkəmləndirmək istiqamətində irəli sürülən planlar və tədbirlər arasında ümumtürk ədəbi dilinin və vahid əlifbanın formalaşdırılması özünəməxsus yerə malikdir. Türk birliyi konsepsiyasının ideoloji əsasları öyrənilərkən ümumtürk ədəbi dili və vahid əlifba ətrafında görülən tədbirlərin də tədqiqata cəlb edilməsi aktualdır.
- Siyasi-diplomatik münasibətlərin formalaşdırılması və dövlət rəhbərləri səviyyəsində əlaqələrin qurulması mədəni və iqtisadi əməkdaşlığın intensivləşməsinə əsas verdi. Bu və digər səbəblər türkdilli dövlət rəhbərlərinin bir yerə toplanması zərurətini meydana çıxardı. Bu məqsədlə türkdilli dövlət rəhbərlərinin zirvə görüşlərinin keçirilməsi qərara alındı. Bu zirvə görüşləri türk birliyi konsepsiyasının ideoloji əsaslarının inkişafında mühüm əhəmiyyət kəsb edir.
- Türkdilli dövlətlərin birliyi beynəlxalq prinsiplərə əsaslanır və ilk növbədə türkdilli dövlətlərin siyasi, iqtisadi və mədəni problemlərinin həllinə, türkdilli respiblikalarda sülhün və sabitliyin təminatına xidmət edir. Müstəqillik əldə etdikdən sonra türk

xalqları və türkdilli ölkələr arasında bir çox sahələrdə əməkdaşlıq ilk növbədə ortaq mədəniyyətin, adət-ənənələrin, tarixin, milli-mənəvi dəyərlərin bərpası baxımından bir sıra müsbət nəticələr vermiş və gələcək üçün perspektivlər açmışdır. Bu səbəbdən türkdilli dövlət və cəmiyyətlərin dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları keçirilir. Dövlət rəhbərlərinin sammitlərində yalnız müstəqil dövləti olan xalqların təmsilçiləri bir araya toplaşırsa, keçirilən qurultaylarda müstəqil dövlətlərlə bərabər, RF daxilində olan muxtar respublikalar və bölgələr də iştirak edir, Çin və İrandakı türklər, digər ölkələrdə yaşayan türk azlıqları da öz nümayəndəlikləri ilə təmsil olunur. Bu qurultaylar da türk birliyi konsepsiyasının ideoloji əsaslarının inkişafına öz töhfəsini vermişdir.

Yuxarıda sadalananlardan əlavə qeyd olunmalıdır ki, müasir dövrdə türk birliyi konsepsiyası türkdilli dövlətlərin siyasi həmrəyliyi, çoxşaxəli və güzəştli iqtisadi əlaqələri, mədəniyyətin bərabər inkişaf etdirilməsi, tarix boyu uzaqlaşdırılan yolların qısaldılması, türk xalqlarının bir-birinə qarşı daha anlayışlı olması şəraitində inkişaf etməkdədir və onun mövcudluğu və bu cür inkişafı artıq tarixi zərurətə çevrilmişdir. Bu səbəbdən mövzunun tədqiq olunması daha aktual əhəmiyyət kəsb edir.

**Problemin öyrənilmə dərəcəsi:** XX əsrin 90-cı illərindən etibarən türkdilli dövlətlərin dünya səhnəsinə çıxması ilə türk birliyi konsepsiyası aktual mövzuya çevrildi və bu mövzuda elmi məqalələr, əsərlər meydana çıxmağa başladı.

Mövzu ilə bağlı ədəbiyyatın izlənməsi belə bir fikir deməyə əsas verir ki, türk birliyi konsepsiyasının ideoloji əsaslarının tarixi inkişafı haqqında bəzi tədqiqat işləri aparılmışdır. Bunlar arasında türkçülüyün ayrı-ayrı ideoloqlarının həyatı və fəaliyyəti haqqında olan tədqiqat işləri aparıcı yer tutur.

Türkçülüyün yaranması və formalaşması tarixinin öyrənilməsini də bir sıra tədqiqat işlərində görmək olar. Məsələn, H.Z.Ülkenin "Türkiyede çağdaş düşünce tarihi"[1], M.A.Çaplikanın "The Turks of Central Asia in history and at the present day"[2], E.Həsənovanın "Идеология буржуазного

---

[1] Ülken H. Z. *Türkiyede Çağdaş Düşünce tarihi.* İstanbul: "Ülken", 1994, 200-486 s.
[2] Czaplicka M.A. *The Turks of Central Asia in history and at the present day*. Oxford: Clarendon press, 1918, 243 p.

национализма в Турции в период младотурок (1908-1914)”[1] kimi əsərlərin adlarını çəkmək olar.

Azərbaycan Demokratik Respublikasının mövcud olduğu 2 il ərzində türkçülük hərəkatı ilə paralel Azərbaycanda daha çox “azərbaycançılıq” ideyası inkişaf etmişdir. Bu dövrə aid tədqiqat işləri arasında S.Vəliyevanın “Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası”[2] monoqrafiyasını qeyd etmək məqsədəuyğundur.

SSRİ-nin dağılması və Azərbaycanla yanaşı Orta Asiyanın türkdilli respublikalarının (Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan) müstəqillik əldə etməsindən sonra 70 ilə yaxın bir müddətdə durğunluq dövrü yaşayan, yalnız mühacirət nümayəndələri sayəsində varlığını saxlayan türkçülük hərəkatı yeni anlayış kəsb edərək türk birliyi konsepsiyası şəklində yenidən meydana çıxdı və aktuallaşdı. Bu dövlətlər, həmçinin, Türkiyə cümhuriyyəti arasında inkişaf edən münasibətlər fonunda türk birliyi konsepsiyasının tarixi köklərinin və müasir vəziyyətinin elmi tədqiqat obyektinə çevrilməsi zərurəti meydana çıxdı. Lakin, qeyd etmək lazımdır ki, müasir dövrdə formalaşan türk birliyi konsepsiyası haqqında tədqiqatlar azdır və əsasən, elmi məqalələr şəklində özünü göstərməkdədir. Müstəqil tədqiqat işləri ikitərəfli münasibətlər, yeni formalaşmış müstəqil türkdilli dövlətlərin ümumi vəziyyəti və siyasi mövqeyi, milli özünüdərk məsələləri və s. ətrafında cərəyan edir. Məsələn, İ.İsmayılovun “Türk dünyası XX əsrin 90-cı illərində”[3], S.Ruintənin “Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri)”[4], O.Sultanovun “80-ci illərin sonu 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə”[5], E.Süleymanlının “Milletleşme sürecinde Azerbaycan türkleri”[6], İ.Vurucunun “Türk kimliğinin yeni boyutları”[7], A.V.Çesnakovun “Пантюркизм в общественно-политической жизни

---

[1] Гасанова Э. Ю. *Идеология буржуазного национализма в Турции в период младотурок* (1908-1914) Баку: изд-во АН АССР, 1966, 160с.
[2] Vəliyeva S. *Milli dövlətçilik hərəkatnın yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası.* Bakı: “Azərbaycan” nəşriyyatı, 2003, 127 s.
[3] İsmayılov İ. Z. *Türk dünyası XX əsrin 90-cı illərində.* Bakı: “Zaman”, 2001, 144 s.
[4] Ruintən S. *Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri).* Bakı: “Adiloğlu”, 2005, 236 s.
[5] Sultanov O. *80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə.* Bakı: “Maarif”, 1995, 231 s.
[6] Suleymanlı E. *Milletleşme sürecinde Azerbaycan türkleri*. İstanbul: “Ötüken”,2006, 373 s.
[7] Vurucu İ. *Türk Kimliğinin Yeni Boyutları – Çokluktan Birliğe*. Konya: Serhat kitabevi, 2010, 326 s.

Азербайджана и тюркоязычных стран Центральной Азии (90-е годы XX начало XXI в.)" adlı dissertasiya işini[1] və s. qeyd etmək olar.

Azərbaycanda türk birliyi fikirləri ilə yanaşı, bu fikirləri də özündə ehtiva edən və rəsmi dövlət ideologiyası səviyyəsində müşahidə olunan "azərbaycançılıq" ideyası S.Xəlilovun "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi"[2], R.Mehdiyevin "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi"[3] və s. elmi ədəbiyyatda müstəqil mövzu kimi təhlil olunur.

Hazırkı dissertasiyanın III fəslində yer alan türkdilli dövlət rəhbərlərinin sammitləri və türk dövlət və cəmiyyətlərinin dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları demək olar heç bir elmi araşdırmaya tabe tutulmamışdır. Bu səbəbdən bu fəsil əsasən rəsmi xronikanın yer aldığı qəzet materialları və qurultayların topluları əsasında işlənmişdir.

Tədqiqat zamanı nəzərdən keçirilmiş ədəbiyyatın təhlili göstərir ki, mövzunun ayrı-ayrı məqamları müəyyən qədər öyrənilsə də, ümumilikdə ona müxtəlif prizmalardan yanaşılmış, lakin kompleks şəkildə elmi-tədqiqat obyekti olmamışdır. Həmçinin, qeyd etmək lazımdır ki, problemin öyrənilməsi indiyə qədər sistemli xarakter daşımamışdır. Məhz buna görə də məsələnin dərindən, hərtərəfli tədqiqi olduqca aktualdır.

**Tədqiqatın obyekti** XIX əsrin sonu, XX əsrin əvvəllərində formalaşmış türkçülük ideologiyasının müasir təzahürü – türk birliyi konsepsiyası, **predmeti** isə türk birliyi konsepsiyasının ideoloji əsaslarının öyrənilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Müasir dövrdə türk birliyi konsepsiyasının ideoloji əsaslarını tədqiq edərkən qarşıya qoyulan məqsəd mövzunun aktuallığı və əhəmiyyəti nəzərə alınmaqla müəyyən edilmişdir. Bu səbəbdən qarşıya, türk birliyi konsepsiyası əsasında dayanan ideyaları bir araya toplamaq və onları kompleks şəkildə təhlil edərək araşdırmaq məqsədi qoyulmuşdur. Qoyulan məqsədin əldə olunması üçün tədqiqat zamanı aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- türk birliyi konsepsiyasının bazasında dayanan ideya əsaslarının yaranma və inkişaf tarixinin öyrənilməsi;

---

[1] Чесноков А.В. *Пантюркизм в общественно-политической жизни Азербайджана и тюркоязычных стран Центральной Азии (90-е годы XX начало XXI в.)* /Диссертация Канд. Ист. Наук, Иваново, РГБ ОД 2005, 195 с.
[2] Xəlilov S. *Heydər Əliyev və azərbaycançılıq məfkurəsi.* Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 2002, 232 s.
[3] Mehdiyev R., *Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi.* Bakı: "Azərbaycan milli ensiklopediyası" nəşriyyatı, 2001, 273 s., s. 188-209

- bu ideyaların müasir dövrdə yenidən gündəmə gəlməsi və türk birliyi konsepsiyası şəklində aktuallaşmasının səbəblərinin araşdırılması;
- müstəqilliklərini qazandıqdan sonra dünya siyasi arenasına çıxmış türkdilli dövlətlərin bu konsepsiyanın ideya əsaslarının yeni təzahürdə meydana çıxmasında rolunun dəyərləndirilməsi;
- Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultaylarının türk birliyi konsepsiyasında əhəmiyyətinin müəyyənləşdirilməsi;
- Türkdilli dövlət rəhbərlərinin sammitlərinin bu konsepsiyanın inkişaf edərək yeni ideyaya – neotürkizmə – keçidinə təkanverici rolunun aydınlaşdırılması;
- türkdilli dövlətlər arasındakı inteqrasiya meyllərinin hansı istiqamətdə baş verdiyi bu konsepsiyaya əsaslanaraq, humanitar, iqtisadi, siyasi və mədəniyyət sahəsindəki hər hansı bir ittifaq yaratmaq meyllərinin nəzəri cəhətdən öyrənilməsi.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- müasir dövrdə türk birliyi konsepsiyasının ideoloji əsasları mövzusu Azərbaycan elmində ilk dəfə olaraq kompleks şəkildə və sistemli olaraq elmi-tədqiqat obyekti kimi nəzərdən keçirilir;
- mövzu ilə əlaqədar elmi ədəbiyyatın, dövri mətbuatın, ümumiyyətlə, müxtəlif xarakterli çoxsaylı materialların toplanması, sistemləşdirilməsi və təhlili əsasında türk birliyi konsepsiyasının ideoloji əsasları tədqiq olunur;
- müstəqil türkdilli dövlətlərin yaranmasının türkçülük ideyasının yenidən gündəmə gəlməsi və aktuallaşmasına təsiri kontekstində türk birliyi konsepsiyasının formalaşması tədqiqat obyektinə çevrilir;
- “Türk dövlət və cəmiyyətlərinin dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları” və Türkdilli dövlət rəhbərlərinin sammitləri, məhz türk birliyi konsepsiyasının formalaşması çərçivəsində tədqiqat obyekti kimi nəzərdə tutulur.

**Dissertasiyanın nəzəri-metodoloji əsası**nı aşağıdakı elmi metodlar təşkil edir:

- fakt və materialların toplanaraq sistemləşdirilməsi;
- sistemli təhlil və şərh;
- müqayisəli təhlil və ya analiz;
- problemə kompleks yanaşma, tarixilik prinsipi;
- ümumiləşdirilmələr aparılaraq elmi nəticələrin əldə olunması.

**Dissertasiyanın elmi-nəzəri və praktiki əhəmiyyəti**:

Dissertasiya işinin əsas müddəaları və nəticələri aşağıdakı hallarda tətbiq və istifadə oluna bilər:

- tematik materialların hazırlanmasında;
- elmi-pedaqoji fəaliyyətdə;
- Azərbaycan respublikasının digər türkdilli respublikalar ilə ikitərəfli və beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində;
- Azərbaycan respublikası və digər yeni yaranmış müstəqil türkdilli dövlətlərin rəsmi dövlət ideologiyasının formalaşdırılması prosesində.

Həmçinin, qeyd olunmalıdır ki, tədqiqat işinin predmeti geniş və mürəkkəb dövrü əhatə etdiyi üçün gələcək tədqiqat işlərində onun zəif işıqlandırılmış ayrı-ayrı sahələrinin tədqiqinə yenidən qayıdılması zərurəti əsla aradan qalxmır.

**Dissertasiya işinin aprobasiyası**: Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyası Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Din və ictimai fikir tarixi" şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş elmi məqalələrində, Respublika və beynəlxalq elmi konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu**: Dissertasiya giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, elmi yeniliyi, məqsəd və vəzifələri müəyyən edilmişdir.

*Birinci fəsil* "**Türk birliyi konsepsiyasının təşəkkül və inkişaf tarixi**" adlanır. Birinci yarımfəsli *"**Türk birliyi konsepsiyasının ideoloji əsaslarının formalaşması və inkişafı**"* adlanır.

Türklərin yaşadığı müxtəlif ərazilərdə türk birliyi konsepsiyasının ideoloji əsaslarının inkişafı müxtəlif xarakterli olmuşdur. İlk növbədə Türkiyədə türk birliyi konsepsiyasının təşəkkül və inkişafı tədqiq edilmişdir. Türkiyədə türk birliyi ideyasının inkişafını şərti olaraq bir neçə mərhələyə ayırmaq olar: Birinci mərhələ təxminən 1845-1860-cı illəri əhatə edir. Bu zaman kəsiyində dil və ədəbiyyat sahəsində türkçülük fikirləri ortaya çıxır. İlk dövrlərdə özünü dil və ədəbiyyat sahəsində göstərən *türkçecilik* hərəkatı sonradan türkçülük ideologiyasının inkişafı üçün əsas olmuşdur. Yarımfəsildə türkçecilik hərəkatının nümayəndələri Ziya Paşa,

Əhməd Vefiq Paşa, Şinasi və b. sonrakı dövr türkçülük hərəkatının inkişafında oynadığı rol işıqlandırılmışdır.

İkinci mərhələ isə təxminən 1870-1880-ci illər arasında müşahidə olunur. Bu dövrün türkçüləri Süleyman Paşa, Əhməd Midhət Əfəndi, Əhməd Cövdət Paşa hesab olunur. Artıq dildən əlavə təhsil, tarix, etnoqrafiya cəbhələri müşahidə olunur. Məsələn, Süleyman Paşanın hərbi məktəblər üçün yazdığı dərsliklər ("Məbayinu-l-İnşa", "Sərfi-Türki", "Tarixi-Aləm" və s.) məhz bu dövrə təsadüf edir və ilk təcrübələrdəndir. Qeyd olunan hər iki mərhələdə türkçülük "Osmanlı milliyyəti" və "İslam birliyi" kimi fikirlərlə qarışmış şəkildədir. Yəni, dil, ədəbiyyat, tarixi araşdırmalardan kənara çıxılmamış, türk birliyi ideyası yaranmamışdır.

Türkiyə xaricindəki türkçülük hərəkatının da Türkiyədə əks-sədası hiss olunur. Bu əsasən Rusiya türklərinin təsiri ilə bağlıdır və bu sırada İ.Qaspiralı (Krım), Ə.Hüsenzadə (Azərbaycan), Ə.Ağaoğlu (Azərbaycan) ilk yerləri tuturlar. Dissertasiyada bu təsir də müəyyən qədər işıqlandırılmışdır. Həmçinin, Avropanın da Türkiyədə türk birliyi ideyalarının inkişafına təkanverici rolu müəyyən edilmişdir.

1880-ci ildən sonra isə üçüncü fəal dövr başlayır. Bu mərhələdə artıq təşkilatlanma müşahidə olunur. Fəsildə Türkiyədə bir-birinin ardınca baş verən və milli ideologiyanın formalaşmasında öz izini buraxan 3 hərəkat – "Yeni osmanlılar", "Gənc türklər", "Mustafa Kamalçılar" haqqında fikirlər, məlumatlar tolanmış və təhlil edilmişdir. Ziyalılar və tələbələr öz fəaliyyətlərini vahid cəbhədə birləşdirmək məqsədi ilə "Osmanlı maarif cəmiyyəti" adlı təşkilat yaratdılar. Bir qədər sonra bu təşkilat "Yeni osmanlılar" adlanmağa başladı. Qısa müddət sonra bu cəmiyyət öz fəaliyyətini dayandırdı. 1889-cu ildə "İttihad və tərəqqi" cəmiyyəti yaradıldı. Bundan sonra türkçülük ideyaları artıq ideoloji və siyasi xarakter kəsb etdi. Bu təşkilatın üzvləri "Gənc türklər" adlanırdı. Onların "Türk dərnəyi", "Gənc qələmlər", "Yeni məcmuə", "Türk yurdu" kimi mətbu orqanları var idi.

Bu dövr türkçüləri arasında aparıcı sima Ziya Gökalp olmuşdur. O, türkçülüyə "Türk millətini yüksəltmək deməkdir" tərifini vermişdi[1].

Z. Gökalp ilə yanaşı Türkiyədə fəaliyyət göstərən türkçülərdən biri də Yusuf Akçura idi. Türkçülük ideyasının öndə gedən təmsilçilərindən olan Yusuf Akçura tatar əsilli olsa da həyatının böyük hissəsini Türkiyədə keçirmiş, burada türkçülük fikri cərəyanının inkişafına öz təsirini

[1] Gökalp Z. *Türkçülüğün esasları.* Ankara: 1939, 175 s., s.23

göstərmişdir. Onun “Türkçülüyün tarixi”[1] əsəri də bu dövrün və türkçülük ideyalarının tədqiqatçıları üçün özünəməxsus əhəmiyyət daşıyır.

Birinci fəslin birinci yarımfəslində türk birliyinin tarixi inkişafında *panislamizm, pantürkizm, panturanizm, osmanlıçılıq, türkçülük* kimi şəkildəyişmələrinin təhlili öz əksini tapmışdır.

*Osmanlıçılıq* Osmanlı İmperiyasının tərkibinə daxil bütün millətlərdən vahid millət – osmanlı millətini yaratmaq ideyalarını özündə birləşdirir. Öz tərəfdarları arasında “ittihadi-ənasir” (ünsürlərin birliyi) adı ilə tanınan hərəkatın osmanlıçılıq adlanması Y.Akçuraoğlunun “Üç tarzı-siyaset” məqaləsinin təsiri ilə bağlıdır və əsasən bu ideyalara qarşı olanlar tərəfindən istifadə olunurdu. Bir çox amillərin təsiri ilə, xüsusən XIX əsrin sonu XX əsrin əvvəllərində milliyyətçilik hərəkatının, milliyyət duyğusunun təsirli olduğu bir dövrdə osmanlı millətini yaratmaq ideyalarının uğur qazanması mümkün deyildi.

*Panislamizm* ilkin mərhələdə bütün müsəlmanların birlik və həmrəylik ideyasını əks etdirirdi. Tərəfdarları arasında “ittihadi-islam” adıyla tanınan panislamizmin aparıcı siması Cəmaləddin Əfqani idi. Fəslin bu hissəsində C.Əfqaninin fikirləri təhlil edilmişdir.

*Türkçülük* ideyaları ilkin mərhələdə dilin sadələşdirilərək xalq danışıq dilinə uyğunlaşdırılması, xarici sözlərin dilin leksikonundan çıxararaq türkləşdirilməsi prosesini özündə əks etdirirdi. Məlum olduğu kimi, o dövrdə mövcud olan türk ədəbi dili ərəb və fars sözləri ilə zəngin idi və xalq danışıq dilindən çox uzaq idi. Bu da milli ədəbi dilin inkişafını çətinləşdirir və türk millətinin formalaşması prosesini ləngidirdi. Əvvəlcə dil və ədəbiyyat sahəsində özünü göstərən türkçülük sonradan türk millətçiləri üçün əsas siyasi cərəyana çevrildi.

*Pantürkizm* və *panturanizmi* isə türkçülüyün antitezi hesab etmək olar. Pantürkizm və panturanizmin yaranma məsələlərini araşdırdıqda bu ideyaların inkişafına təkan verən xarici faktorlar da nəzərə alınmalıdır. Yarımfəsildə bu məsələ də öz əksini tapmışdır.

Bütün bu fikirlər müasir dövrdə formalaşan türk birliyi konsepsiyasının ideoloji əsaslarının inkişafına zəmin yaratmışdır və konsepsiya sadalananlar arasında əsasən türkçülüyün elementlərini özündə ehtiva edir.

XX əsrin əvvəllərində sosial ziddiyyətlərin kəskinləşməsi bütün Azərbaycan cəmiyyətinin həm siyasi, həm də ideoloji cəhətdən fəallaşması

---

[1] Akçuraoğlu Y. *Türkçülüğün tarihi*. İstanbul: “Kaynaklar”, 1998, 184 s.; Akçuraoğlu Y. *Türkçülüyün tarixi*. (Azərbaycan dilinə uyğunlaşdıran f.e.d.Aybəniz Kəngərli). Bakı: “Qanun”, 2006, 308 s.

üçün obyektiv şərait yaratmışdır. Bu dövrdə dildə, ədəbiyyatda, mətbuatda, düşüncə və fəaliyyətdə, dövlətçilikdə milli düşüncənin, millətçilik fikirlərinin oyandığı və yeni inkişaf mərhələsinə başladığı müşahidə olunur. Azərbaycanda milli ideologiyanın əsas və aparıcı qüvvəsi azərbaycançılıq olsa da o, geniş şəkildə türkçülük ideologiyasından bəhrələnirdi.

Azərbaycanda ilk türkçü-ideoloqlar arasında Ə.Hüseynzadənin adı xüsusilə çəkilməlidir. O yazılarının birində qeyd edirdi ki, "türk-tatar xalqları birinci dövrdə qılıncla, ikinci dövrdə dinlə parlamışdısa, indi, yəni üçüncü dövrdə elm və biliklə parlamalıdır."[1]

Ə.Hüseynzadə redaktoru olduğu "Həyat" qəzetində nəşr etdirdiyi məqalələri ilə türkçülük fikirlərini təbliğ etməyə başladı və milli ideologiyanın əsas müddəalarını müəyyənləşdirdi. "Əkinçi" bağlandıqdan sonra uzun müddət milli mətbuatın yoxluğuna son qoyan "Həyat" qəzeti milli və ictimai fikir tarixində təkrarolunmaz rol oynadı.

Təxminən bir il fəaliyyət göstərən "Həyat" bağlandıqdan sonra Ə.Hüseynzadə "Füyuzat" adlı həftəlik jurnal nəşr etdirməyə başladı. 1906-cı ilin noyabrından fəaliyyətə başlayan "Füyuzat" "Həyat"ın işini davam etdirir, milli düşüncəli ziyalıları, ədibləri öz ətrafında birləşdirirdi. Bu jurnal həmin dövrün mədəni həyatında mərkəzləşdirici, istiqamətverici və öyrədici bir orqan olaraq silinməz iz buraxdı. "Füyuzat"ın, başqa sözlə Ə.Hüseynzadənin ətrafında Azərbaycan tarixinə "Füyuzat ədəbi məktəbi" kimi daxil olan böyük bir hərəkat formalaşdı: bu ictimai və mədəni sahədə türkçülük, ədəbi sahədə isə romantizmdən ibarət bir cərəyan idi. Ə.Hüseynzadənin rəhbərlik etdiyi "Füyuzat" jurnalı və "füyuzatçılıq" cərəyanı XX əsr Azərbaycan həyatında ictimai-milli və nəzəri-ideoloji təfəkkürün, inkişafında müstəsna rol oynadı.

Ə.Hüseynzadənin fikirləri XX əsrin əvvəllərində milli dirçəliş uğrunda mübarizənin qida mənbəyinə çevrilmiş, "türkləşmək, İslamlaşmaq, müasirləşmək" şəklində şüar kimi formalaşmışdır. Bu şüar bu gün də Müstəqil Azərbaycan Respublikasının atributu olaraq öz aktuallığını saxlayır.

Bir çox tarixi hadisələr – 1905-ci il inqilabı, 1917-ci il inqilabı və s. türkçülük fikirlərinin inkişafına təkan verən amillərdən olmuşdur. Məhz buna görə bu tarixi hadisələr də dissertasiyada müəyyən qədər öz əksini tapmışdır. Baş verən tarixi hadisələrin nəticəsində 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Cümhuriyyətin elanı da türk birliyi fikirlərinin inkişafına özünəməxsus təkan verdi. Başqa sözlə ədəbi intibahla başlayan, 1905-ci ildən xüsusilə canlanan, 1917-ci ildən isə özündə inqilabi

---

[1] Hüseynzadə Ə. *Qırmızı qaranlıqlar içində yaşıl işıqlar.* Transliterasiya və tərtib edən O. Bayramlı. Bakı: "Azərnəşr", 1996, 253 s., s.44

ruh daşıyan proses 1918-ci ildə müstəqilliyin elan olunması ilə nəticələndi. AXC-nin qurulması, onun 23 aylıq fəaliyyətinin bəzi xüsusiyyətləri və süqutunun səbəbləri fəsildə təhlil edilmişdir.

Millətçilik ideyalarının sürətlə inkişaf etdiyi bir dövrdə Azərbaycanla yanaşı əksər türkdilli xalqlar da Çar Rusiyasının tərkibinə daxil idi. Digər türkdilli xalqlarda türkçülük ideyalarının yayılmasına təkan verən əsas amillərdən biri məhz türklərə qarşı ruslaşdırma və xristianlaşdırma siyasəti idi. Yəni, Rusiya müstəmləkəçiliyinin ağır təzyiqləri ümumrusiya türkləri arasında türkçülüyün inkişafı üçün daha əlverişli şərait yaratmışdır. Rusiya imperiyası tərkibində türkçülük bir neçə cərəyanla inkişaf edirdi. İlk növbədə sadəcə türklərə xristian xalqlarla bərabər hüquq verilməsi məsələsi qaldırıldı. Sonra türk xalqlarının Rusiya tərkibində muxtariyyət uğrunda mübarizəsi başladı. Nəhayət müstəqil dövlət yaratmaq ideyaları meydana çıxdı.

Krım tatarlarında milliyyətçilik ideologiyasının aparıcı siması İ.Qaspiralı idi. Lakin, onun ilk fikri və yazılı fəaliyyətindən etibarən Krımla kifayətlənmədiyi aydın görünür. İ.Qaspiralının "Dildə, fikirdə, işdə birlik" formulu naşiri və redaktoru olduğu "Tərcüman" qəzetinin şüarı olmuşdur. Rusiyada türkçülüyün təbliğində "Tərcüman"ın təsiri böyük rol oynamışdır. "Tərcüman" qəzeti, demək olar ki, Həsən bəy Zərdabinin "Əkinçi" qəzetindən sonra türk dünyasının ən fövqəladə hadisəsi oldu. Dissertasiyanın bu hissəsində "Tərcüman" və onun redaktoru olan İ.Qaspiralı haqqında məlumatlar, onun ideyaları təhlil edilmişdir.

"Tərcüman" qəzeti və belə demək mümkünsə "Tərcüman ədəbiyyatı" öz dövründə türk dünyasında ən çox yayılan nəşrlərdən biridir. İslahatlar cərəyanı, rus mədəniyyəti və bəlkə də "Tərcüman" fikirlərinin təsiri altında 1880-ci illərə doğru Kazan şəhərində milliyyət fikri tarix və etnoqrafiya sahəsində meydana çıxır. O zamana qədər özlərini sırf müsəlman sayan kazanlılar arasında yenilikçi elm adamlarından Şihabəddin Mərcani qeyd edilməlidir. Onun bu sahədə ən məşhur əsəri olan "Kitabu-Müstəfadi-l-Əxbar fi Ahval-i-Kazan"da ilk dəfə kazanlı müsəlmanlara dindən başqa bir də milliyyətin varlığını xatırladır. Ş.Mərcaninin şagirdləri və davamçıları onun fikirlərini və ideyalarını inkişaf etdirdilər. Nəticədə Kazan türklərində də XIX əsrin son rübündən etibarən milliyyətçilik, türklük fikri və hərəkatları başlamış oldu.

Fəslin ikinci yarımfəsli ***"SSRİ və Türkiyə Cümhuriyyəti qurulduqdan sonra türk birliyi ideyasının öz varlığını saxlaması"*** adlanır.

SSRİ-nin yaranmasından sonra türk birliyi ideyalarının inkişafı yalnız ilk illərdə müəyyən hadisələrlə yadda qalmışdır. Ümumilikdə isə 1920-1990-cı illər arasında türk birliyi ideyaları öz varlığını mühacirətdə

olan türkçülər sayəsində saxlaya bilmişdir. İlk dövrlərdə baş verən hadisələr arasında ən mühümü I Beynəlxalq türkoloji qurultayıdır. 1926-cı ildə Bakıda keçirilən qurultay türklərin birləşməsi ideyası meydana çıxandan sonra ilk dəfə bu ideya tərəfdarlarının bir yerə toplaşdığı tədbir hesab oluna bilər. Bakının strateji mövqeyi, türk dünyasının mərkəzində yerləşməsi qurultayın məhz Bakıda keçirilməsinə səbəb olmuşdur. Türk millətçiliyinin transformasiya etdiyi kamalizmin və marksizm-leninizmin üz-üzə dayandığı qurultay siyasi, strateji məqsəd və əhəmiyyət daşısa da elmi-türkoloji baxımdan daha böyük rola malikdir. Qurultayda Türk dünyasının dilinə, tarixinə, etnogenezinə, etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə həsr olunmuş 38 məruzə təqdim edilmişdi. 1930-cu illərdə əksəriyyəti bu qurultay iştirakçılarından olan şəxslərin repressiyalara məruz qalması artıq Sovet İttifaqı ərazisində türk birliyi ideyalarının inkişafını məhdudlaşdırdı. Təbii ki, Sovet dövründə türkdilli xalqlar müəyyən inkişaf dövrü yaşadı. Mədəniyyət, iqtisadiyyat, elm və təhsil sahələrində ciddi dəyişikliklər baş verdi. Lakin, bu xalqların birləşməsi ideyaları yalnız mühacirət nümayəndələri sayəsində mövcud olmuşdur.

SSRİ ilə təxminən eyni zamanda Avrasiyanın başqa bir guşəsində yeni respublika – Türkiyə Cumhuriyyəti yarandı. Türkiyədə türkçülük fikri başlanğıcda bütün türkləri birləşdirmək, hətta "Böyük Turan" yaratmaq kimi ideallar ətrafında inkişaf etsə də Müstəqil Türkiyə Cümhuriyyətinin yaranmasından sonra türk birliyi ideologiyası kamalist millətçiliyinə transformasiya etdi. Hər şeydən əvvəl milliyyətçilik, yəni türkçülük ideologiyası pantürkizmin təzahürlərindən təmizləndi. Kamalistlərin anlayışında türk milliyyətçiliyi türk milli dövləti ilə sıx bağlı idi – millət-dövlət əlaqəsi kimi qəbul edilirdi. Pantürkizm və Turan ideyaları yolverilməz və təhlükəli qəbul edilmişdi. Milliyyətçilik prinsipləri yalnız milli dövlətin sərhədləri çərçivəsində reallaşdırıla bilərdi. Bütün bunlar türk milliyyətçiliyi anlayışını konkretləşdirir və yeganə hakim ideologiyaya çevrir. Digər prinsip – dünyəviliyə gəlincə, bu ideya hələ gənc türkçülər zamanında özünü biruzə vermişdi. İttihadçılar arasında dünyəvilik ideyaları böyük təsirə malik idi. Türkçülük-dünyəvilik İslamın təsirinin azalması və mülki-hüquqi normaların şəriət qanunlarını üstələməsi üçün praktik tədbirlərdə istifadə olunurdu. Kamalçılar da bu təcrübədən istifadə etmişlər. Lakin onlar ittihadçılardan daha irəli gedirlər. Yeni şərtlərdə milli dövlətin mövcudluğu, geniş reformaların həyata keçirilməsi, ölkənin modernizasiyası və s. üçün kamalçılar türkçülüyü dinin təsirindən tamamilə azad etməli idilər. Bu səbəbdən onlar dünyəvilik prinsiplərini həyata keçirməyə və dünyəvi dövlət qurmağa başladılar. Buna görə də dünyəvilik

milliyyətçiliyin qüvvətlənməsi vasitəsi kimi, kamalçılar tərəfindən qarşıya qoyulmuş başlıca milli məqsədin – qərbləşmiş dövlət yaradılmasının daha effektiv və tez təmini vasitəsi kimi nəzərdən keçirilməlidir. 1982-ci ildə qəbul edilmiş yeni Konstitusiyada milliyyətçilik prinsipinə daha çox diqqət ayrıldı. Konstitusiyanın preambulasında bu prinsipin əhəmiyyəti göstərilirdi: "türkçülüyün tarixi və mənəvi dəyərləri, Atatürkün millətçiliyi heç bir müzakirəyə tabe tutulmur".[1] Bu Konstitusiyanın qəbulundan sonra 20-30-cu illərin kamalçılarından fərqli olaraq dünyəvilik prinsipi ateist şərhindən uzaqlaşdı və tarixi, dini dəyərlərə əhəmiyyət verməyə başladı.

XX əsr müharibələr və inqilablar əsri oldu. İki dünya müharibəsi və onların ardınca uzun ideoloji soyuq müharibə dövründə milyonlarla insan həyatını itirdi və milyonlarla insan ölkəsini tərk etmək məcburiyyətində qaldı. Xüsusilə Sovet İttifaqında kommunist ideologiyasının nəzarəti altında olan millətlər insanlıq tarixinin ən böyük faciələrindən birini yaşadılar. Bu ideologiyaya qarşı mübarizə aparmaq və ölkələrini müstəqilliyə qovuşdurmaq ümidi ilə xarici ölkələrə mühacirət edənlər də az deyildi. Orta Asiya ərazisində Sovet hakimiyyətinin qurulduğu illərdə, xaricdəki mübarizənin ilk mərkəzi Əfqanıstan olmuşdur. Əsas simalar isə türküstanlı ziyalılar, "İttihad və Tərəqqi" hərəkatının bəzi liderləri idi [2].

Xaricdə Türküstan mübarizəsi 1920-ci ildən etibarən başda Almaniya, Fransa və Polşa olmaqla bəzi Avropa ölkələrinə və xüsusilə də Türkiyəyə yayıldı[3]. Türkiyə yarandığı ilk illərdə çətin vəziyyətdə olmasına baxmayaraq, siyasi mühacirlərə sığınacaq vermiş, müəyyən qədər onların xaricdəki fəaliyyətlərini dəstəkləmişdi. Bu mühacirlərdən bəziləri yeni qurulmuş Türkiyə Cümhuriyyətində vəzifələr almış, əvvəlki fəaliyyətlərindən uzaqlaşmışdılar. Bunlara misal olaraq Sadri Məqsudi, Fuad Toktar, Abdullah Battal və s. göstərmək olar. Digərləri – öz ərazilərindəki siyasi irəliləyişlərdə təsirli rol oynayan M.Ə. Rəsulzadə, Z.V.Toqan, Osman Kocaoğlu, Ayaz İshaqi, Səid Şamil, Cəfər Seyidəhməd kimi şəxslərin siyasi fəaliyyətdən uzaqlaşması mümkün deyildi. Bunun üçün onlar vaxt itirmədən təşkilat yaratmağa başladılar. Bu təşkilatlar arasında "Qafqaz Azadlıq Komitəsini", "Türkistan Azadlıq Cəmiyyətini" göstərmək olar. Hər bir təşkilatın öz mətbu orqanı olmuşdur. Lakin, sonradan Türkiyənin daxili siyasətindəki dəyişikliklər (Atatürk

---

[1] Türkiye Cümhuriyyeti Anayasası (kabul tarihi: 7.12.1982). Bursa, Ekin Yayınevi, 2010

[2] Andican A. *Cedidizmden Bağımsızlığa Hariçte Türkistan mücadelesi.* İstanbul: Emre yayınları, 2003, 926 s., s. 16

[3] Andican A. *Cedidizmden Bağımsızlığa Hariçte Türkistan mücadelesi.* İstanbul: Emre yayınları, 2003, 926 s., s. 17

hökumətinin türkçülük ideyaları və tərəfdarlarına qarşı fərqli mövqe tutması) nəticəsində bu təşkilatlar mərkəzlərini Avropaya, əsasən, Parisə və Varşavaya köçürdülər. Bir qədər sonra isə Fransada yaradılan «Prometey» təşkilatı onların mərkəzinə çevrildi. Avropadakı mühacirlərin əsasən Parisdə məskunlaşması səbəbindən təşkilatın mərkəzi Parisdə oldu. Lakin onlar Polşadan dəstək alırdılar. Bu dəstək sayəsində aradan bir il belə keçmədən beloruslar və ermənilər istisna olmaqla SSRİ-yə daxil edilmiş bütün qeyri-rus millətlərin mühacirləri bir yerə toplaşmış və "Prometey" cəbhəsi quruldu. "Prometey" hərəkatını idarə edən siyasi mərkəz Rus əsiri millətlərin "Prometey liqası" adıyla 1926-cı ildə Varşavada quruldu. Təşkilat, "Prometey"ə qatılan milli hərəkatların təmsilçilərindən ibarət Mərkəzi Şura tərəfindən idarə olunurdu. "Prometey" təşkilatının fəaliyyəti II Dünya Müharibəsinə qədər davam etdi. II Dünya Müharibəsində "Prometey"ə dəstək olan ölkələrin məğlubiyyəti bu təşkilatın fəaliyyətinə də təsir göstərdi və nəticədə təşkilat dağıldı.

Müharibədən sonrakı dövrdə türkdilli xalqların azadlıq və birlik mübarizəsi qısa bir fasilədən sonra Almaniya başda olmaqla Türkiyədə və Şərq ölkələrində yenidən formalaşdı. Türkdilli xalqların azadlığı və birliyi uğrunda mübarizə aparanların demək olar hamısı vətəndən kənarda dünyaya göz açan insanlar idi. Yəni, onlar heç vaxt görmədikləri bir ölkənin, bir idealın mübarizəsinə qoşulmuşdular. Bu hərəkatın zəif nöqtələrindən biri o idi ki, mübarizə aparan ziyalıların sayı çox az idi. Tarix boyunca meydana gələn siyasi hərəkatların yaranması, formalaşması, inkişafı əsasən onu formalaşdıran və istiqamətləndirən liderlərdən asılı olmuşdur. Öz ölkələrində mübarizə aparmağı daha düzgün sayan ziyalıların repressiyaların qurbanı olması, xaricdə mübarizə aparan liderlərin sayının azlığı milli-azadlıq hərəkatının zəif məqamlarından olmuşdur.

XX əsrin 80-ci illərinin sonunda baş verən siyasi-iqtisadi proseslərin fonunda, SSRİ daxilində millətlərarası münaqişələrin alovlanması zəminində Sovet İttifaqı öz varlığını qoruyub saxlaya bilmədi. Nəticədə 1991-ci ildə SSRİ-nin ləğvi barədə qərar qəbul edildi və 15 müstəqil respublika yarandı ki, bunlardan beşi türkdilli dövlətlər oldu.

Müstəqil türkdilli respublikalar yarandıqdan sonra bu dövlətlərin əməkdaşlığı və birgə fəaliyyəti uğrunda mübarizə başlandı. Bu da türk birliyi konsepsiyasının təkrar gündəmə gəlməsi və aktuallaşması üçün şərait yaratdı.

*İkinci fəsil "***XX əsrin son rübündə türk birliyi konsepsiyası ideoloji əsaslarının inkişafı**" adlanır. Iki yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil *"**Azərbaycanda müstəqillik elan edildikdən sonra türk birliyi konsepsiyasının ideoloji əsaslarının inkişaf parametrləri**"*

adlanır. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi və ideoloji vəziyyət, Azərbaycanın müstəqilliyinin elanı və ilk illəri işıqlandırılır. 80-ci illərin ortalarından başlayaraq SSRİ-nin dağılması prosesində Azərbaycan Respublikası fəal iştirak edən respublikalardan biri idi. Bu, Azərbaycan xalqının Dağlıq Qarabağ ətrafında gedən siyasi hadisələrə, mərkəzin haqsız siyasətinə qarşı çıxması, mitinqlər təşkil etməsi, etiraz aksiyaları keçirməsi, erməni təcavüzkarlığını və rəhbərliyin millətçilik siyasətini kəskin tənqid etməsində təzahür edirdi. Milli müstəqillik uğrunda mübarizənin yeni dövrü kimi tarixə daxil olmuş bu illər həm də xalqımızın özünəqayıdış prosesi kimi diqqəti cəlb edir.

Həmin dövrdə Sovet siyasi məkanında durğunluq hallarının güclənməsi, tədricən ictimai-siyasi həyatda gərginlik, demokratik fikirlərin inkişafında yeni mərhələlərin başlanması Azərbaycanda milli oyanış, müstəqillik ideyalarının baş qaldırması prosesi müşahidə olunur. SSRİ-yə daxil digər respublikalarda yalnız müstəqillik probleminin həlli başlıca məsələ olsa da, Azərbaycanda iki həll olunmalı vacib məsələ – müstəqillik uğrunda mübarizə və “Dağlıq Qarabağ problemi” mövcud idi.

1991-ci ilin avqustun 27-də Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı. 29 avqust 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyin bərpası haqqında bəyannamə qəbul edildi. Bu bəyannamə rəhbər tutularaq Ali Sovetin II sessiyasının 1991-ci il 18 oktyabr tarixli iclasında “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı” qəbul edildi. Daha sonra beynəlxalq təşkilatlara və xarici ölkələrə müraciət olundu və Azərbaycanın müstəqil suveren dövlət kimi tanınması xahiş edilirdi. Yeni yaranmış Azərbaycan Respublikası özünü 1918—1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etdi. Azərbaycanda müstəqillik fikirlərinin və hərəkatının inkişafına digər respublikalardan fərqli iki amil xüsusi təkan vermişdi: Dağlıq Qarabağ və 20 yanvar. 1991-ci ildə müstəqilliyin bərpası tarixi xronologiyasını AXC-dən başlasa da cümhuriyyətin praktikasının zəifliyi dövlətçilikdə ona əsaslanmağa imkan vermirdi. Bu səbəbdən yeni dövlətçilik ənənələrinin formalaşması labüd idi.

Müstəqil Azərbaycanda azərbaycançılıq dövlət ideologiyası elan edildi və özündə türkçülüyü və islamçılığı birləşdirən bu ideya dövlətin strateji xətti kimi irəli sürüldü. Azərbaycançılıq ideologiyasının ardıcıl və məqsədyönlü formalaşması prosesi elmi ədəbiyyatda XIX əsrin sonu XX əsrin əvvəllərində təşəkkül və inkişaf tapan maarifçilik hərəkatına aid edilir. XX əsrin əvvəlində məhz azərbaycançılıq başlıca istiqlal ideyası idi. İndi əsrin sonunda da “istiqlal ideologiyamız təməlində türkçülük və

islamçılıq dayanan azərbaycançılıq olmalıdır."[1] Bu məfkurə təkcə Azərbaycan ərazisində yaşayan insanların maraqlarını deyil, həm də bütün dünyada yaşayan azərbaycanlıların məqsəd və məramlarını özündə ehtiva etməlidir. Həmin məfkurənin müasir dövrdə məzmunu Heydər Əliyev tərəfindən bəyan edilmiş və dünyada yaşayan hər bir azərbaycanlıya ünvanlanmışdı. Dünya azərbaycanlılarının qurultayında Heydər Əliyev üzünü dünyanın müxtəlif ölkələrindən gəlmiş həmyerlilərimizə tutaraq qeyd etmişdi ki: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövlət müstəqilliyni əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir."[2]

Azərbaycançılıq təliminin özünəməxsusluğu hansı milli mənəviyyatı, dini cərəyanı və tarixi məqamı özündə birləşdirməsindən asılı olmayaraq Azərbaycan əhalisinin əksəriyyəti üçün xarakterik olan ümumi əlamətlərin sintezi ilə səciyyələnir.

SSRİ-nin dağılması və onun tərkibinə daxil olan digər respublikalar kimi Azərbaycanın müstəqil olması Azərbaycan xalqının tarixi inkişafında yeni mərhələnin əsasını qoydu. Müstəqilliyini əldə etdikdən sonra Azərbaycan qarşısında milli dövlət maraqlarına cavab verən, çoxşaxəli xarici siyasət nəzəriyyəsi formalaşdırmaq vəzifəsi dururdu. Bu nəzəriyyədə Yaxın və Orta Şərqin Azərbaycanla tarixi bağlılığı, etnik, dini və mədəni ortaqlığı olan ölkələrinə xüsusi yer verməsi zəruri idi. Bu zərurət nəticəsində Azərbaycanda milli mənsubiyyət fikirlərinin aktuallaşmasının arxasınca uzun illər təzyiqlərə və təqiblərə məruz qalan türklük düşüncəsinin yenidən yayılması müşahidə olunurdu.

Azərbaycan üçün qardaş və dost olan bu ölkələrlə əlaqələrin qədim və zəngin bir tarixi var. Hələ SSRİ zamanında Azərbaycan Orta Asiyanın türkdilli dövlətləri ilə sıx mədəni, iqtisadi əməkdaşlıq edirdi. Əlbəttə bu münasibətlər türk xalqları arasında münasibət kimi qiymətləndirilmirdi, SSRİ tərkibində "xalqların və millətlərin bərabərliyi" kontekstində mövcud idi. İndi isə Azərbaycan müstəqil dövlət kimi Türk Dünyası ilə, o cümlədən

[1] Şəmsizadə N. Azərbaycançılıq. Bakı: Nurlar, 2006, 192 s., s. 66
[2] Azərbaycan qəzeti, №11.11.2001

Orta Asiyanın türkdilli dövlətləri ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə daim çalışır.

Əsrlər boyu türk xalqları bir-birinə bənzəyən, yaxud, bir qədər fərqlənən adət və ənənələrini, mədəniyyət və elmini qoruyub saxlamış və inkişaf etdirmişlər. Hal-hazırda türk xalqları iqtisadiyyat, elm və mədəniyyət, təhsil və s. sahələrdə əməkdaşlıq üçün mövcud imkanlardan, yaranmış şəraitdən istifadə edərək bir-birinə dəstək olur.

İkinci yarımfəsil ***"Orta Asiya türkdilli respublikalarının müstəqilliyini elan etməsi və bu respublikaların türk birliyi ideyasının inkişafında rolu"*** adlanır. Burada SSRİ-nin süqutundan sonra Orta Asiyanın türkdilli xalqlarının müstəqilliklərini əldə etməsi və ayrı-ayrı dövlətlərə sahib olması prosesi türk birliyi konsepsiyası kontekstində işıqlandırılır. İqtisadi vəziyyətin olduqca gərgin və insanların həyat səviyyəsinin çox aşağı olduğu Orta Asiyada uzun illərdən bəri toplanmış siyasi, milli, sosial zəminli problemlər şəraitində türk xalqları 4 müstəqil respublika yaratdılar. Fəslin bu yarımfəslində respublikalardan hər birinin ayrı-ayrılıqda SSRİ-nin son illərində və müstəqilliklərinin ilk illərindəki vəziyyəti təhlil edilir. Həmçinin, Orta Asiyanın türkdilli respublikalarının türk birliyi konsepsiyasının ideoloji əsaslarının inkişaf etdirilməsindəki rolu tədqiq edilir. Orta Asiyanın türkdilli respublikaları ilə Azərbaycan və Türkiyə arasında bir sıra sahələrdə əməkdaşlıq türk birliyi ideyasının inkişafına da öz təsirini göstərmişdir.

*Üçüncü fəsil* "**Müasir dövrdə türk birliyi konsepsiyası**" adlanır. Iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil "***Ümumtürk ədəbi dilinin və vahid əlifbanın yaradılması ideyası"*** adlanır. Müstəqilliklərini əldə etdikdən sonra türkdilli dövlətlər arasında başlamış yaxınlaşma dünyada baş verən inteqrasiya prosesləri ilə üst-üstə düşür və türk xalqlarının maraqlarını müdafiə edərək aktuallıq kəsb edir. Türkdilli dövlət rəhbərlərinin sammitləri, türk xalqlarının qurultayları keçirilir, Türkdilli Dövlətlərinin Parlament Assambleyası yaradılmışdır. Bununla yanaşı türk xalqlarının mədəni inteqrasiyasına mane olan əsas problemlərdən biri müxtəlif türk dillərinin və dialektlərinin mövcudluğu və ortaq ədəbi dilin olmamasıdır.

Ümumtürk ədəbi dilinin yaradılması ideyası türk birliyi ideyası kimi başlanğıcını XIX əsrin sonu, XX əsrin əvvəllərindən götürür. Dilin milli birlikdə oynadığı rolu dərk edən ziyalılar hələ XIX əsrin sonunda milliyyətçilik, türklük fikirləri və hərəkatları ilə yanaşı ortaq ədəbi dilin zəruriliyi ideyasını da irəli sürürdülər. Bu ilk dəfə İ.Qaspiralının fəaliyyətində özünü göstərir. Dildə birlik şüarını ilk olaraq ortaya qoyan, onu reallığa çevirmək yolunda ömrü boyu mübazirə aparan İ.Qaspiralı

fikirlərini və ideyalarını naşiri və redaktoru olduğu "Tərcüman" qəzeti vasitəsilə cəmiyyətə çatdırırdı. Nəşr olunduğu 31 il (1883-1914) ərzində bu qəzet dünyanın müxtəlif guşələrində yaşayan türk xalqlarını birləşdirməyə, yüksəltməyə çalışan ən məşhur türkçü və islamçı mətbuat orqanı oldu. İ.Qaspiralı tərcümanın nəşri üçün elə bir dil seçmişdi ki, türklərin yaşadığı bütün ərazilərdə onu rahatlıqla oxuyub başa düşürdülər. "Tərcüman"la yanaşı "Füyuzat" və "Həyat" kimi mətbu orqanlar da bu ideya uğrunda fəaliyyət göstərirdilər.

Mədəni türkçülük hərəkatının ilk ideoloqlarından biri kimi İ.Qaspiralı belə hesab edirdi ki, milli birliyə nail olmaq üçün ən vacib vəzifə bütün türklərin anlayacağı ümumi bir dillə mətbuat orqanları, məktəblər təsis etməkdir. Bəlkə bu səbəbdəndir ki, müasir dövrdə də milli birlik – türk birliyi yaratmaq ideyaları ilə yanaşı ümumtürk ədəbi dilinin yaradılması fikirləri də formalaşmışdır. Ilk dəfə Azərbaycan alimi Afad Qurbanov belə bir təkliflə 1992-ci ildə Ankarada keçirilən konfransda çıxış etmişdir. A.Qurbanovun fikrincə ortaq türk ədəbi dili qarşılaşdırma və müqayisə prinsipi əsasında yaradılmalıdır. Alim, həmçinin, prosesin vahid mərkəzdən idarə olunması məsələsini vurğulayaraq dil mərkəzinin yaradılması zəruriliyini irəli sürür.[1] Daha sonrakı illərdə ümumi dilin yaranması metodikası özbək alimi Baxtiyor Kərimov tərəfindən işlənib hazırlanmışdır. Onun metodu müxtəlif türk dillərində sözlərin tez-tez istifadə edilməsinə və bu sözlərdən istifadə edən əhalinin sayına əsaslanır. Yəni, konkret bir sözə xalqların əksəriyyətində rast gəlinirsə demək o qədim türk dilində istifadə edilmişdir. Bu yolla bərpa edilmiş ümumtürk dili – "Ortatürk" bütün türkdilli xalqların anlayacağı bir dil olacaq və beləliklə təkcə ünsiyyət vasitəsi deyil, həmçinin elm və mədəniyyət dilinə çevriləcək. Lakin, "Ortatürk"ü formalaşdırmaqla yanaşı hər bir türkdilli xalqın mənsub olduğu dilin də öz arealında inkişafını davam etdirməsi labüddür. Bu bir çox türk dillərinin yox olmasının qarşısını ala bilər.

Fəslin ikinci yarımfəsli ***"Türkdilli dövlət rəhbərlərinin sammitləri, dövlət və qeyri-hökumət təşkilatlarının türk birliyi konsepsiyasının ideoloji əsaslarının inkişaf etdirilməsindəki rolu"*** adlanmışdır. Siyasi-diplomatik münasibətlərin formalaşdırılması və dövlət rəhbərləri səviyyəsində əlaqələrin qurulması mədəni və iqtisadi əməkdaşlığın intensivləşməsinə əsas verir. Bu səbəbdən türkdilli dövlət rəhbərlərinin bir yerə toplaşması zərurəti yarandı və 1992-ci ildən etibarən türkdilli dövlət rəhbərlərinin zirvə görüşlərinin keçirilməsi qərara alındı. Bu təşəbbüslə ilk

[1] Qurbanov A. *Ortaq türk ədəbi dili*. Bakı: Gənclik, 1999. 35s. s.8-9

dəfə S.Dəmirəl çıxış etmişdir. 1992-2010-cu illər arasında 10 zirvə görüşü keçirilmişdir. 2009-cu ildə Naxçıvanda baş tutan IX Zirvə toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında qərar qəbul edildi. 2010-cu ildə Türkiyədə keçirilən X Zirvə görüşündə Türkdilli dövlətlərin əməkdaşlıq şurasının yaradıldığı tarixi – 3 oktyabrı türkdilli ölkələrin əməkdaşlıq günü kimi qeyd etmək qərara alındı və növbəti zirvə görüşləri TDƏŞ çərçivəsində keçirilməsi razılaşdırıldı. 2011-ci ildən bu günə qədər TDƏŞ-in 4 Zirvə toplantısı olmuşdur. Dissertasiyada zirvə görüşləri ayrı-ayrılıqda təhlil edilmiş və bu sammitlər çərçivəsində alınan qərarlar, yaradılmış təşkilatlar və görülən işlərin və fəaliyyətlərin türk birliyi konsepsiyasının ideoloji əsaslarının inkişaf etdirilməsindəki rolu tədqiq edilmişdir. Bu toplantılar türk xalqları arasında təşəkkül tapmış əlaqələrin və əməkdaşlığın tarixi, dil və mədəniyyət ümumiliyindən irəli gələn xüsusi amillərə müvafiq surətdə, müstəqillik, suverenlik, ərazi bütövlüyünə hörmət, bir-birinin daxili işlərinə qarışmamaq və bərabərlik prinsipləri əsasında möhkəmləndirilməsinə xidmət edir.

Müstəqillik qazandıqdan sonra türk xalqları və türkdilli ölkələr arasında çoxtərəfli əməkdaşlıq ilk növbədə ortaq mədəniyyətin, adət-ənənələrin, tarixin, milli mənəvi dəyərlərin bərpası baxımından bir sıra müsbət nəticələr vermiş və gələcək üçün perspektivlər açmışdır. Bu səbəbdən türkdilli ölkələr arasında əməkdaşlığın təmin edilməsi və fikir mübadiləsi aparılması məqsədi ilə TÜDEV və TİKA 1993-cü ildən etibarən Türkdilli Dövlətlərin və Cəmiyyətlərin Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı keçirməyə başlamışdır. Qurultaylarda müstəqil dövlətlərlə bərabər, Rusiya Federasiyası daxilində olan muxtar respublikalar və bölgələr də iştirak edir, Çin və İrandakı türklər, digər ölkələrdə yaşayan türk azlıqları da öz nümayəndələrini göndərirlər. Keçirilən qurultaylar türkdilli dövlətlər və xalqları arasında əlaqələrin möhkəmləndirilməsində özünəməxsus rol oynayır.

Bu qurultayların keçirilməsində məqsəd türk dövlət və cəmiyyətləri arasında dostluq, qardaşlıq və əməkdaşlığı inkişaf etdirmək, informasiya mübadiləsinə nail olmaq, türk mədəniyyətinin zənginliklərini təbliğ etmək, iqtisadi inkişaf sahəsində əməkdaşlığı genişləndirə biləcək zəruri addımlar atmaq və türkdilli dövlətlərin problemlərinin həlli yollarını araşdırmaqdır. Qurultaylarda dövlət və elm adamları, işadamları və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edir.

Qurultaylarda, əsasən, beynəlxalq münasibətlər, mətbuat və yayım komissiyası, iqtisadiyyat, ticarət, maliyyə məsələləri və turizm komissiyası, mədəniyyət komissiyası, təhsil, elm və texnologiya komissiyası, gənclik komissiyası, ictimai idarə və hüquq komissiyası fəaliyyət göstərir. Əsasən, türkdilli dövlət və cəmiyyətlərin iqtisadi inkişafını təmin etmək, beynəlxalq

sahədə həmrəyliyi gücləndirmək, mədəni bağları qüvvətləndirmək, dövlətlər və xalqlar arasında mümkün əməkdaşlığı inkişaf etdirmək, mövcud əməkdaşlıqları genişləndirmək və yeni əməkdaşlıq sahələrini müəyyən etmək və s. kimi hədəflər qurultayların keçirilməsinin başlıca məqsədidir. Keçirilən tədbirlər çərçivəsində türk xalqları arasında elm, texnika, mədəniyyət, təhsil, iqtisadiyyat, ticarət, turizm və maliyyə sahələrində əməkdaşlıq, Türk dünyasının mədəni irsinin təbliği, müasir qloballaşma proseslərinin türk xalqlarının həyatına təsiri ilə bağlı məsələlər müzakirə edilir.

Keçirilən qurultaylarda Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanlılara qarşı törədilən soyqırım və terror faktlarının dünyaya çatdırılması istiqamətində türkdilli ölkələrin birlikdə fəaliyyət göstərməsi ilə bağlı məsələlər, Şimali Kiprin blokadadan çıxarılması üçün türkdilli dövlətlərin dəstəyi, Şimali Kiprlə mədəni, iqtisadi, siyasi əlaqələrin qurulması, İraq türkmənlərinin hüquqlarının təmin edilməsi kimi türk dünyasının problemləri də müzakirə obyekti olmuşdur.

Təhsil və mədəniyyət sahəsində bir sıra işlərin reallaşdırılması nəzərdə tutulmuşdur. Bunlardan əməkdaşlığı və ünsiyyəti asanlaşdırmaq məqsədi ilə ortaq əlifbanın formalaşdırılması üçün bəzi qeyri-hökumət təşkilatlarının, elmi araşdırma mərkəzlərinin yaradılması, ortaq “Türk tarixi”, “Türk ədəbiyyatı”, “Dini mədəniyyət və əxlaq” dərsliklərinin hazırlanması və orta təhsil müəssisələrində tədris olunması, qeyri-türk respublikalarının ərazilərində yaşayan türk xalqlarının doğma dillərində dərslik və ədəbiyyatla təmin edilməsi və s. nümunə göstərmək olar. Türk dünyasının elmi kitabxanasının və onun elektron versiyasının yaradılması, türk dünyasına dair bütün zəruri məlumatları əks etdirən internet axtarış sisteminin formalaşdırılması türk xalqlarının zəngin tarixinin və mədəniyyətinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Türk adları ilə bağlı domen adlarının mənimsənilməsi də bu qəbildəndir. 1993-cü ildən bu günə kimi keçirilən qurultaylar türk dövlət və cəmiyyətləri üçün böyük mənəvi, tarixi, həmçinin, siyasi əhəmiyyətə malikdir.

Türkdilli respublikalar həm beynəlxalq həm də yerli təşkilatlarda əməkdaşlıq edir və bu münasibətlərə türk birliyi ideyaları özünəməxsus təkan verir. Bu təşkilatlar arasında TÜRKSOY, TÜSİAB, TUDEV, TİKA, TDA, TKA, KİBATEK və s. qeyd etmək olar. Bu təşkilatlar iqtisadi və mədəni sahədə fəaliyyət göstərir. Azərbaycanda Atatürk Mərkəzini də bu siyahıda hesab etmək olar. Azərbaycanda Atatürk irsinin araşdırılmasına böyük maraq göstərilir. Bununla yanaşı türk dünyası ilə bağlı bir çox tədqiqat, tərcümə və araşdırma işləri aparılır.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə olunan elmi-nəzəri qənaətlər ümumiləşdirilmişdir.

**Mövzu ilə bağlı aşağıdakı elmi məqalələr çap edilmişdir:**


1. Türk birliyi ideologiyasının modifikasiyası barədə // BDU İlahiyyat fakültəsinin elmi məcmuəsi, N 11, aprel (nisan) Bakı: 2009, s.280-289
2. Türk birliyi ideologiyasının tarixinə dair ("Türk yılı" toplusu əsasında) // BDU-nin 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları (humanitar elmlər), 30-31 oktyabr 2009
3. "Türk yılı" toplusu əsasında türk birliyi konsepsiyası // Dirçəliş – XXI əsr, N 143-144, Bakı: 2010, s. 369-375
4. Türk birliği bağlamında Azerbaycan Türkiye ilişkilerinin önemi // YOM (türk dünyası kültür dergisi), N 17, İstanbul: 2010, s. 79-85
5. Müasir dövrdə türk birliyi ideologiyasının inkişafı // Müasir Şərqin sosial-iqtisadi inkişafı və Azərbaycan modeli, Bakı, 17-18 mart 2010
6. Türk birliyi konsepsiyasının müasir şərhi // AMEA aspirantlarının elmi konfransının materialları, may 2010, Bakı, Elm, s.458-461
7. Türk birliyi ideologiyasının inkişafında TÜRKSOY-un rolu // Gənc Alimlərin Əsərləri, № 4, Bakı: 2011, s. 200-206
8. Müstəqil Azərbaycanın dövlətçilik ideologiyası – azərbaycançılıq və "Türk birliyi" konsepsiyası // AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq institutu, Elmi əsərlər, № 1 (16), 2011, s. 104-108
9. Роль саммитов глав тюркоязычных государств в формировании концепции тюркского единения //Актуальные проблемы гуманитарных и естественных наук, № 7 (30), Москва: 2011, с. 59-61
10. Ə.Ağaoğlunun "İslama görə və müsəlman aləmində qadın"əsəri //BDU İlahiyyat fakültəsinin elmi məcmuəsi, № 19. 2013. s.327-338
11. Ümumtürk ədəbi dilinin yaradılması ideyası // Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr edilmiş gənc tədqiqatçıların I beynəlxalq elmi konfransı (materiallar). Bakı, 25-26 aprel 2013. s.499-501.
12. "Fuyuzat" jurnalında türk birliyi konsepsiyasının ideoloji əsasları // Gənc alimlərin əsərləri. № 8, Bakı, 2013
13. Идея создания общетюркского литературного языка. // Гилея: научный вестник. Вып. 90 (11). Киев, 2014, стр.281-284
14. "Dildə, fikirdə işdə birlik": Ümumtürk ədəbi dilinin yaradılması ideyası. // Risalə araşdırmalar toplusu. № 10. Bakı: 2014. s.154-163
15. Саммиты глав тюркоязычных государств и концепция «тюркского единения». // XXVIII Международная научная конференция по источниковедению и историографии стран Азии и Африки. Санкт-Петербург 22–24 апреля 2015 г. ст.123-124

Нуриева Кямаля Агагюль

# ИДЕОЛОГИЧЕСКИЕ ОСНОВЫ КОНЦЕПЦИИ ТЮРКСКОГО ЕДИНСТВА НА СОВРЕМЕННОМ ЭТАПЕ

## РЕЗЮМЕ

Изучение идеологических основ концепции тюркского единства стало актуальным после обретения независимости тюркоязычных государств в конце XX столетия. В диссертации исследуются идеологические основы тюркского единения, возникновение которого можно отнести к концу XIX и началу XX века.

В диссертации, состоящей из введения, трех глав и заключения, исследуются идеологические основы концепции тюркского единства, история формирования и развития этих основ, а также модификация и выражение на современном этапе.

В разделе «**Введение**» обосновывается актуальность избранной темы, определяются цель и задачи, объект исследования, научная новизна, теоретическая и практическая значимость работы.

В **первой главе - «История формирования и развития концепции тюркского единения»,** состоящей из двух параграфов, исследуются вопросы модификации, истории зарождения и развития идеи тюркского единства в разных регионах, заселенных тюркоязычными народами, а также положение и развитие этих идей после образования СССР и Турецкой Республики.

**В двух разделах второй главы** диссертации - **«Развитие идеологических основ концепции тюркского единения в последней четверти XX века»** - последовательно освещаются вопросы обретения независимости Азербайджана и тюркоязычных народов Средней Азии после распада СССР, роли независимости в актуализации концепции тюркского единства и влияния независимых государств на развитие идеологических основ тюркского единения.

В **третьей главе** диссертации **- «Концепция тюркского единения на современном этапе»** рассматриваются вопросы создания общетюркского литературного языка, роли Саммитов глав тюркоязычных государств в формировании концепции единства тюркоязычных народов, влияние съездов дружбы, братства и сотрудничества тюркских государств и обществ на развитие идеологических основ концепции тюркского едства.

В **Заключении** работы обобщаются основные результаты исследования.

Nuriyeva Kamala Agagul

IDEOLOGICAL BASIS OF THE CONSEPT OF TURKIC UNION IN THE MODERN PERIOD

**SUMMARY**

Researching of ideological bases of the concept of a Turkic union became actually after independence of Turkic states in the end of the XX century. In the dissertation investigated ideological bases of a Turkic union which takes its basis from the end of the XIX and the beginning of the XX century.

The dissertation consisting of introduction, three chapters and the conclusion, is devoted to disclosing of ideological bases of the concept of a Turkic union, history of formation and development of these bases, position and modification at the modern period.

In the **«Introduction»** the importance of the theme is proved, the purpose and problems, object of research, scientific novelty, the theoretical and practical importance of the work are defined.

In the first chapter - **«History of formation and development of the concept of a Turkic union»**, consisting of two sections, are investigated problems of modification, history of origin and development of idea of a Turkic union in different regions where Turkic nations were settled, and also position and development of this idea after formation of the USSR and Turkey.

In two sections of the second chapter of the dissertation - **«Development of ideological bases of the concept of a Turkic union in the last quarter of the XX century»** - are consistently taken up questions of a findings of independence of Azerbaijan and turkic people of Central Asia after disintegration of the USSR, a role of this independence in actualization of the concept of a Turkic union and influence of the independent states on development of ideological bases.

In the third chapter of the dissertation - **«The concept of a Turkic union at the modern period»**, consisting of two sections, are considered questions of literary language creations, role of the summits of heads Turkic states in the formation of the concept of a Turkic union, the influence of friendship congresses, brotherhood and cooperation of the Turkic states and societies on development of ideological bases of the concept of a Turkic union.

In the **«Conclusion»** the basic results of research are generalized.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**КЯМАЛЯ АГАГЮЛЬ КЫЗЫ НУРИЕВА**

# ИДЕОЛОГИЧЕСКИЕ ОСНОВЫ КОНЦЕПЦИИ ТЮРКСКОГО ЕДИНСТВА НА СОВРЕМЕННОМ ЭТАПЕ

Специальность: 7210.01 – история философии

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по философии

**Б А К У – 2015**